# Həyatda çox yollar var...



**Şəmsi Bədəlbəyli Azərbaycan mədəniyyətində görkəmli və nüfuzlu simalardan biri idi. O, çox mühüm və məsuliyyətli rəhbər vəzifələr tutmaqla bərabər, həm də Tanrının bəxş etdiyi nəciblik, nurluluq, təmkin və səbr daşıyıcısı idi. İlk baxışdan çox "zəhimli və hökmlü adam" təəssüratı yaradan Ş. Bədəlbəyli, əslində olduqca mehriban və qayğıkeş bir insan idi.**

**Uzun illər onunla çiyin-çiyinə işləyən sənət adamları hansı şəraitdə, hansı məqamda olursa olsun, Şəmsi müəllimin işçiyə qarşı olan tələbkarlığı ilə bərabər, həm də böyük köməkçi, məsləhətçi, yardımçı olduğu barədə çox həvəslə söhbət açırlar.**

Bu böyük insanın bütün sənətkarlara, xüsusilə sənət aləminə yenicə qədəm qoyan cavanlara olan səmimi münasibətindən, qayğısından və istedadları teatr aləminə dəvət edib, onlara ümid verməsindən və üzlərinə həmişə bağlı olan qapıları açmaq həvəsindən danışırlar.

Mən də tarixini dəqiq deyə bilməyəcəyim, lakin hafizəmdə dərin iz buraxmış bu insanın haqqında bir neçə sözlə öz xatirəmi sizlərlə bölüşmək istəyirəm.

Şəmsi müəllim Musiqili Komediya Teatrının direktoru idi (Bəlkə də, bədii rəhbəri). Teatrın aktyor truppasına gənc aktyor tələb olunurdu. Görkəmli sənətkarımız, Musiqili Komediya Teatrının aktrisası, Respublikanın Xalq artisti Nəsibə xanım Zeynalova bu barədə mənə xəbər çatdırdı. Çünki, o məni lap uşaq yaşlarımdan televiziya ekranlarında görüb, bəyənmişdi.

Bildiyiniz kimi, hələ 1957-ci ildən məni Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsinə (O vaxt belə adlanırdı) uşaq redaksiyasının hazırladığı verilişlərə cəlb eləmişdilər. Mən də o dövrün neçə-neçə korifey sənətkarları ilə birgə burada hazırlanan canlı tamaşalarda uşaq rollarını oynayırdım. Azərbaycanın kino sahəsində də uşaq rollarına çəkilməklə bərabər, Azərbaycan dilinə tərcümə olunan müxtəlif bədii filmlərin dublyajında aktiv iştirak edirdim.

Bu mənada mənə böyük etibarı olan Nəsibə xanım eşidəndə ki, mən İncəsənət İnstitutunun (O vaxt belə adlanırdı) qəbul imtahanından, məhz sənət imtahanından kəsilmişəm, çox məyus oldu və bu məqamdan istifadə edib, mənim də Musiqili Komediya Teatrında keçirilməsi nəzərdə tutulan müsabiqədə iştirak etməyimi tövsiyə elədi.

Gəldim...Gecikmişdim...Teatr direktorunun otağında bir neçə korifey sənətkar oturmuşdu. Nəsibə xanım da onların arasında... Sən demə, müsabiqə yolu ilə sınağa çəkilən gənc aktyorlara qulaq asıb, artıq hansınısa işə qəbul etmişdilər. Mən isə müsabiqədənkənar gəlmişdim, həm də gecikmişdim. Odur ki, pərt halda otağa daxil oldum..."Çəkinmə!"

- dedilər, "Utansan, səhnəyə çıxa bilməzsən"... Bir neçə sual verib, əsas mətləbə keçdilər və bu teatr üçün vacib olan vokal imkanımı yoxlamaq məqsədi ilə "Bizim üçün nə oxuya bilərsən?" -soruşdular... Müşayiətçi olmadığından tək oxuyası oldum... Sonra dedilər bildiyin, tanıdığın tamaşalardan bir seçmə oxu...Çox sevdiyim bir ariyanı - Əsgərin ariyasını oxudum... O vaxt necə oxuduğumu özüm dəyərləndirə bilmərəm, amma onu bilirəm ki, mənim ifamdan sonra otağa uzun sürən bir sakitlik çökmüşdü... Mən də öz məsuliyyətimdən başıaşağı durmuşdum...Onu eşitdim ki, Şəmsi muəllim ağır-ağır dedi: "A bala, sən gecikmisən axı...Amma eybi yoxdur, gələn dəfə çalış vaxtında gəl, hayıfsan".

Mən bu sözlərin nə demək olduğunu o vaxt tamamilə anlaya bilməsəm də, bir ümid yerim oldu.

Sonralar Şəmsi müəllim Teatr Xadimləri İttifaqına rəhbərlik edəndə də mənə çox dedilər, get yanına, yəqin yadında olarsan...Yenə utandım, getmədim...

Mən indi başa düşürəm ki, bəlkə də bu günə kimi teatra, kinoya bu qədər bağlı olub, bu sənətdə qalmağıma əsas səbəblərdən biri də Şəmsi müəllimin "Vaxtında gəl, heyifsən!"-deməyi olub. Buna görə o böyük insana həmişə minnətdar olacağam...

Sonralar "Azərbaycanfilm" kinostudiyasında çəkilən bəzi filmlərin iş prosesi zamanı Şəmsi müəllimlə görüşər, ayaqüstü söhbətlər edərdik.

Şəmsi Bədəlbəylinin kinodakı işi barədə bir-iki kəlmə demək istəyirəm.

Azərbaycan kinosu öz ekran əsərlərində həmişə olduğu kimi Azərbaycan kişisinin dolğun obrazını yaratmaq istəyəndə bir neçə sənətkara, o cümlədən Şəmsi Bədəlbəyliyə müraciət edib.

Bildiyimiz kimi, Ş.Bədəlbəyli bir neçə bədii filmdə çəkilib.Bunlardan "O qızı tapın"(rejissor-müəllif Həsən Seyidbəylinin 1970-ci ildə çəkdiyi) bədii filmi, 1971 - ci ildə rejissor Kamil Rüstəmbəyovun çəkdiyi məşhur "Axırıncı aşırım", yenə də rejissor Həsən Seyidbəylinin məsləhəti ilə üç novellanın "Ömrün səhifələri" adı altında birləşdiyi bu filmdə Ş.Bədəlbəylinin işini göstərmək olar.

"O qızı tapın"- bədii filmi o dövrün milis işçilərinə, onların dövlət mülkiyyətini dağıdanlara qarşı mübarizəsinə həsr olunub. Bu filmdə milis polkovniki Zeynalov rolunda çəkilən Ş.Bədəlbəyli olduqca dolğun bir obraz yaratmaqla, asayişin keşiyində dayanan insanların nə qədər ağır və təhlükəli peşə sahibləri olduğunu göstərmiş, onu tamaşaçılara sevdirə bilmişdi.Bu mənada,filmin son epizodlarının birində qatı cinayətkarla üz-üzə gəldiyi səhnədə polkovnik Zeynalovun (Şəmsi Bədəlbəylinin) iti zəkalı, ağır xarakterli bir insanın çox böyük arxayınçılıq hissi və soyuqqanlılıqla "Silahı atın.." deyib, siqaretini yandırdığı məqam olduqca inandırıcıdır.

"Axırıncı aşırım" filmində Şəmsi Bədəlbəylinin yaratdığı, inqilab komitəsinin sədri - Şabanzadə obrazı da öz dövrünün ağır, dramatik hadisələrlə dolu həyat tərzinin çətinliklərini tamam əks etdirə bilmişdir.

"Ömrün səhifələri" filmində də eləcə...

Şəmsi Bədəlbəyli bu filmlərdə möhkəm xarakterli, səbrli, təmkin və nüfuz sahibi olan azərbaycanlı kişisinin obrazlarını yaratmaqla milli kinomuza öz dəyərli töhfələrini vermişdir.

Kinorejissorlar tərəddüd etmədən onu öz filmlərinə dəvət edirdilər. Bildiyimiz kimi, kinoda əsas cəhətlərdən biri fakturadır. Çəkildiyi bütün rollarda Şəmsi Bədəlbəyli kişiyə xas olan mühüm sifətləri büruzə verməkdə heç bir çətinlik çəkməyib desəm, yəqin ki, yerinə düşər. Çünki Ş.Bədəlbəylinin özü bu kişilik xüsusiyyətlərinin daşıyıcısı idi.Tamaşaçını inandırmaq üçün aktyora reallıqları əks etdirməyi tapşırıq verən rejissorlar,"fakturalar" rolun xarakterinə uyğun gəlməyincə əziyyət çəkirlər.

Çünki aktyor bütün keyfiyyətləri birləşdirib oynadığı obrazda ifadə etməlidir. Şəmsi Bədəlbəylinin isə öz fakturası buna kifayət edirdi ki, tamaşaçı onun simasında görmək istədiyini tapsın, ona inansın. Şəmsi Bədəlbəylinin roluna inanırdılar. Çünki onun özünə inanırdılar, etibar edirdilər. Bu isə yaradıcı ilə tamaşaçı arasında təmas yaratmaq üçün ən əsas şərtlərdən biridir.

İstər teatr, istərsə də kino aləmində böyük xidmətləri olan Şəmsi Bədəlbəylinin həm insan, həm də yaradıcı obrazı onu tanıyanların xatirəsində dərin iz buraxmışdır. Böyük sənət yollarındakı saysız-hesabsız izlər-cığırlar arasında özünün təkrarolunmazlığı ilə seçilən bir yol vardır.

**Bu sənət yolu həm doğulduğu torpaq, həm incəsənət kamilliyi, həm pedaqoqluq göstəriciləri və həm də doğma Azərbaycanımıza adlı-sanlı sənətkar, dünya şöhrətli pianoçu - Fərhad Bədəlbəyli kimi bir şəxsiyyət bəxş etmiş Şəmsi Bədəlbəyliyə məxsusdur.**

**Ramiz ƏZİZBƏYLİ,**
*xalq artisti, professor*